

# ŞEİRİYYƏT, ŞƏXSİYYƏT, SƏMİMİYYƏT

## Şair dostum Oqtay Rzanın əziz xatirəsinə

Əlövsət BƏŞİRLİ

**Məramındır xeyirxahlıq,**
**Yox qəlbində başqa niyyət.**
**Sən olmasan azalardı**
**Şeirimizdə səmimiyyət!**

*Adil Cəmil*

... Qonşu məktəblərdə oxuyurduq, Oqtay məndən dörd yaş böyük idi. O vaxt Salyan rayon mərkəzi kitabxanası ilə uşaq kitabxanası bir binada yerləşirdi. Mən yaşıdlarımla kiçik qonşu otaqdan boylanıb mərkəzi kitabxananın oxu zalına baxanda orada bizdən böyükləri - Əliağa Kürçaylını, Ağacavad Əlizadəni, Xəlil Rzanı görürdük. Oqtay onlardan 5-6 yaş kiçik olsa da kitabxanadakı ədəbi birlikdə iştirak edirdi. Hələ beşinci sinifdə oxuyanda rayon qəzetində şeiri çap olunmuşdu. Bu balacaboy, civə kimi bir yerdə qərar tutmayan, xoşsifət oğlan mənə simsar görünürdü. İkimiz də atasız böyüyürdük. Onun ali təhsilli müəllim atası repressiya qurbanı olmuşdu. Oqtay sonralar mənə "Açıq məktub"unda yazacaqdı:

**Oxşar taleyə bax - hər ikimizin**
**Uşaqlıq çağımız Muğanda keçib.**
**Döyüb qapımızı yetimlik bizim,**
**Başımız üstündən tufan da keçib.**

Maddi-mənəvi sıxıntılar, ehtiyac onu sındıra bilmədi, səylə oxudu, o vaxt respublikada məşhur olan Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) geoloji kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirdi, dissertasiya müdafiə edib geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsinə layiq görüldü. Uzun illər Azərbaycan Dövlət Pedaqoji Universitetində coğrafiya fənnini tədris etdi. Və heç vaxt qələmi əlindən düşmədi, "Geoloq-mineroloq, müəllimlik mənim peşəm, şairlik isə taleyimdir", - dedi.

Geoloq kimi doğma Azərbaycanı qarışqarış gəzdi, Böyük və Kiçik Qafqaza təşkil olunan axtarış-ekspedisiyalarında iştirak etdi. Kəşfiyyat səfərlərinə xüsusi önəm verən Oqtay ərazisi Yer kürəsinin altıda bir hissəsini əhatə edən keçmiş Sovet İttifaqının ucqarlarına gedib çıxdı. Sakit okeanı, "Antipodlar adası"nı, Kola körfəzindən tutmuş Kamçatkayadək böyük bir ərazini geoloq kimi gəzib dolaşdı. "Geologiyanın əsasları" adlı iki hissəli dərsliyin müəlliflərindən biri oldu, mətbuatda elmi-kütləvi məqalələrlə çıxış etdi. Elmi fəaliyyəti Oqtay Rzanın poeziya aləmini zənginləşdirdi. Ədəbiyyatşünas həmkarları onun şeirlərinin böyük bir qismini "ölkəmizin poetik coğrafiyası" adlandırdılar. Bu qeyri-adi, heyrətamiz poeziya çələngində "Geoloq marşı"ndan başlamış "Gördüm səni uzaqlarda, Azərbaycan!" silsilə şeirləri yer aldı.

**Yola salacaqsan min qərinəni**
**Qəm-kədər qismətin olmasın, Vətən!**
**Təbiət füsunkar yaradıb səni,**
**Bircə çiçəyin də solmasın, Vətən! -**

deyən, doğma yurduna, ocağına, torpağına, təbiətinə vurğun şairə həmyerlisi, dəyərli pedaqoq, yazıçı-publisist Qulam Sadiq "Oqtay Rza çiçəyi var söz gülşənində" kitabını həsr edib. Və xüsusi vurğulayıb ki, ixtisasca geoloq-mineroloq olan, yəni sözün həqiqi mənasında, yerin altındakı, üstündəki bütün mineralların quruluşunu mütəxəssis kimi gözəl bilən Oqtay Rza bu qanunauyğunluqlara poetik ruh, bədii vüsət verərək oxuculara çox orijinal, bənzərsiz poziya nümunələri bəxş edib:

**Nə qədər sirr, düyün açılır gündə,**
**Vətəndaş, kəşf elə özünü sən də.**
**Mineral deyilsən, adamsan, bacar**
**Gah sərt, gah yumşaq ol, yeri gələndə.**

"Oqtay Rzanın yaradıcılığı" kitabının müəllifi, tanınmış ədəbiyyatşünas, yazıçı-publisist Allahverdi Emin yazır: "Oqtay Rza



poeziyasında elmlə-idrakla şeiriyyətin ittifaqı vardır... Onun şeirlərində elmi fikirlə bədii pafosun vəhdəti, bir-birini tamamlaması güclüdür".

"Oqtay Rzanın şeirlərində ictimai-sosial və mənəvi-əxlaqi kateqoriyaların qırmızı xətlə keçdiyini" xüsusi vurğulayan Allahverdi müəllim göstərir ki, şairin poeziyasında İnsan - yaradan, quran, fəaliyyətdə olan İnsan bədii obraza çevrilir.

İnsanda ən ülvi keyfiyyətlərin şahı sayılan "Ədalət" anlamına Oqtay Rza həssaslıqla yanaşır. Bu insani-əxlaqi meyar əbədi motivdir:

**Öz-özünə yaranmayıb**
**Ürəyimin hərarəti.**
**Güvəndiyim, inandığım**
**Ulu qüvvə ədalətdir.**

**Amalıma çevirmişəm**
**Əzəl gündən həqiqəti,**
**Çünki düzlük bizim müdrik**
**Babalardan əmanətdir.**

Oqtay Rzanın elmi fəaliyyətinə, bədii yaradıcılığına həsr olunan kitabda ədəbiyyatşünas-tənqidçilərin, elm-sənət adamlarının və şairin qələm dostlarının ürək sözləri yer alıb. Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Ramiz Qurbanov yazır: "Oqtay Rzanın "İşıq sürətilə uçası olsam" şeiri elmlə poeziyanın vəhdətinə ən səciyyəvi misaldır:

**Şan-şöhrət qucmaram, dövlət qucmaram,**
**Qaçmaram meydandan, mübarizədən;**
**İşıq sürətilə hələ uçmaram -**
**Bir az lazımamsa bu dövrana mən".**

Tanınmış şair-publisist Əbülfət Mədətoğlu: "Azərbaycan ədəbi mühitində elə bir söz sahibi yoxdur ki, Oqtay Rzanı tanımamış olsun. Çünki təpədən dırnağa, bütün canıyla, qanıyla bir şirinliyin, bir dadın, duzun bütövlüyü olan Oqtay Rza hər sözüylə, hər beytiylə, hər addımıyla istər xeyirdə, istər şərdə iştirakından asılı olmayaraq, ətrafındakıları özünə cəlb edir. Hər kəsin diqqət mərkəzində olur".

Onu yaxından tanıyanların sözləri Oqtay Rzanın ədəbi mühitdə bir şəxsiyyət, bir şair, bir pedaqoq olmaqla yerini müəyyənləşdirir. Eyi zamanda, o, sözün əsl mənasında xalqına, Vətəninə, doğulduğu torpağa qəlbən vurğun insandır.

**Yurdum Odlar diyarıdır,**
**Bu torpağın balasıyam.**
**İlhamımı ömür boyu**
**Vətənimdən alasıyam, -**

deyən şairin "Doğmalıq" şeiri bu baxımdan xüsusilə diqqət çəkir:

**El yaşadır kəlamını Qorqudun,**
**Ney tütəyin sirdaşıdır, tar udun.**
**Doymaq olmur havasından bu yurdun**
**Yağışında, çiçəyində - doğmalıq!**
**Hər daşında, kəsəyində - doğmalıq!**

Mənə və Oqtay Rzaya eynilə doğma olan yerlərə yolum düşəndə elə bil onun səsini eşidirəm:

**Fəsillər arxada, fəsillər öndə,**
**Yaş məhək daşıdır insan ömrünün;**
**Bizim Qalalı da, sizin Cəngən də**
**Ağrı-acısını dadıb sərt günün.**

Salyanda müqtədir şairimiz Əliağa Kürçaylının adını daşıyan küçədə Oqtay Rzanın qürurla gəzdiyini, özünəməxsus avazla pıçıldadığı misraları xatırlayıram:

**Bir ucun söykənir Kür sahilinə,**
**Kimin nəfəsidir bu həzin külək?**
**Kürçaylı küçəsi, əzizsən mənə**
**Kürçaylı şeirinin son misrasıtək!**

Ədəbiyyatımıza solmaz poeziya çələngləri bəxş etmiş Əliağa Kürçaylı, Xəlil Rza Ulutürk, Ağacavad Əlizadənin işıqlı xatirələrini əziz tutan, gözəl ənənələrini yaşadan Oqtay Rzanın şeirimizdə öz ünvanı var. Zamanın və Məkanın fövqündə duran bu ünvan şeirsevərlərin, oxucuların qəlbindədir. Ürəklərdə ucalan heykəlləri uçurmaq mümkün olmadığı kimi ünvanları da silmək mümkün deyil. Nə qədər şeirimiz, sənətsevərlərimiz, qədirbilən oxucularımız var, bu ünvan olacaq və sahibinin adını yaşadacaq.

**Unudulmaz şair dostum, ömrü boyu qəlbi poeziya ilə döyünən, Şeiriyyət, Şəxsiyyət, Səmimiyyət rəmzi olan İnsana həsr etdiyim yazımı görkəmli yazıçı-publisist Aqil Abbasın ürək yanğısı ilə söylədiyi sözlərlə bitirirəm: "Kaş ki, insanlar Oqtay Rza kimi yaşayıb, Oqtay Rza kimi öləydi". Ömründə bir adamın toyuğuna daş atmamışdı, bir adamın xətrinə dəyməmişdi. Uşaqla uşaq idi, böyüklə böyük. Əlli il ali məktəbdə dərs dedi, bir tələbə ondan incik düşmədi. Tələbələrin ən sevimli müəllimi idi. Geologiyanı da şeirlə deyirdi. Rüşvət nədi, bilmədi. Yalan nədi, bilmədi. Heç bir günaha da batmadı".**